Paris-2024 Yay Olimpiya Oyunlarında iştirak edəcək Azərbaycan Olimpiya komandasının yolasalma mərasimi keçirilib. Milli Gimnastika Arenasında təşkil olunan tədbir Dövlət Himnimizin səsləndirilməsi ilə başlayıb. Tədbir iştirakçılarını salamlayan gənclər və idman naziri Fərid Qayıbov idmançıların ilk dəfə olimpiadaya suveren,




# *Azərbaycanın Paris-2024-dəki bayraqdarları açıqlanıb*

ərazi bütövlüyü bərpa olunmuş ölkənin təmsilçiləri kimi yollanacağını bildirib. O, Olimpiya Oyunlarında iştirak edəcək idmançıların hamısından uğur gözlədiyini vurğulayıb.

Tədbirdə ümummilli liderimiz Heydər Əliyevin, Vətən müharibəsi şəhidlərinin və idman ictimaiyyətindən vəfat edənlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbirdə Azərbaycanın Paris-2024-dəki bayraqdarları açıqlanıb. Oyunlarda üçrəngli bayrağımızı cüdoçu Gültac Məmmədəliyeva və boksçu Məhəmməd Abdullayev daşıyacaq.

Azərbaycan təmsilçilərinin Olimpiya Oyunları üçün xüsusi dizaynla hazırlanmış vahid idman forması təqdim olunduqdan sonra tədbir bədii hissə ilə davam edib.

Qeyd edək ki, Paris-2024 Yay Olimpiya Oyunlarında Azərbaycan 15 idman növü üzrə 48 idmançı ilə təmsil olunacaq. Oyunların açılış mərasimi iyulun 26-da, bağlanışı isə avqustun 11-də olacaq.